Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “___”“________” 2022-ci il tarixli _____________nömrəli Qərarı ilə təsdiq edilmişdir

**İşədüzəltmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması xidmətinin**

**Pasportu**

**Xidmətin adı:**

İşədüzəltmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması

**Xidmətin məzmunu:**

Bu xidmət Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsindəvasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılmasına dair münasibətləri əhatə edir.

**Xidmətin aid olduğu təsnifat:**

Əmək və məşğulluq

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (Nazirlik)

**Xidmətin həyata keçirilmə formaları:**

Özünəxidmət (Elektron sistemlər vasitəsilə)

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

Elektron qaydada məlumatlandırma
Çağrı mərkəzi vasitəsilə məlumatlandırma

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərə dair məlumatlar Reyestrə daxil edilir, işaxtaran və işsiz şəxslərin işə düzəlməsində vasitəçilik fəaliyyəti ilə əlaqədar

toplanılmış informasiya ehtiyatları ilə bağlı Nazirliklə elektron qaydada qarşılıqlı məlumat mübadiləsi təmin edilir.

**Xidmət istifadəçisi barədə məlumat:**

Hüquqi şəxslər

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

| | |
|---|---|
| Müddət | 20 dəqiqə |
| Xidmət haqqı | Ödənişsiz |

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

Elektron qaydada 7/24

**Xidmətin göstərilmə yeri:**

"Elektron hökumət" portalı
"e-sosial" portalı
Nazirliyin və (və ya) Agentliyin rəsmi internet səhifələri

**Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları:**

İmtina edilmir

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması:**

Sənəd tələb edilmir

**Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar:**

İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər tərəfindən aşağıdakı məlumatlar əsasında "Elektron hökumət" və ya "e-sosial" portallarının mövcud autentifikasiya vasitələrindən istifadə etməklə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) "Məşğulluq" altsistemində, yaxud Nazirliyin və (və ya) Agentliyin rəsmi internet səhifəsində "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinə daxil edilmək üçün "Müraciət - Ərizə" elektron formada (interaktiv qaydada) doldurularaq daxil edilir:
hüquqi şəxsin adı;
hüquqi şəxsin hüquqi ünvanı, faktiki ünvanı, əlaqə telefonları;

hüquqi şəxsin təşkilati-hüquqi forması;
vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, qeyri-kommersiya qurumu üzrə həmçinin qeydiyyat nömrəsi;
hüquqi şəxsin hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri;
hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yaratdığı qurumların olduğu yer, təşkilati-hüquqi forması və qeydiyyatı haqqında məlumatlar;
hüquqi şəxsin ləğvetmə prosesində olub-olmaması.
İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər barədə məlumatlar Reyestrə bilavasitə hüquqi şəxsin rəhbəri və ya onun səlahiyyət verdiyi şəxslər tərəfindən daxil edilir.
İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxs mövcud informasiya ehtiyatlarında ona aid olan fərdi və kommersiya xarakterli məlumatların Nazirlik tərəfindən sorğu edilərək əldə olunmasına dair razılığını gücləndirilmiş elektron imzası ilə təsdiq etməlidir.

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

“e-sosial” portalı
Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi

**Xidmətin elektronlaşma səviyyəsi:**

Elektronlaşdırılmışdır

**Elektron xidmətin avtomatlaşdırma səviyyəsi:**

Qismən avtomatlaşdırılmışdır